# Meydan tamaşalarının aktyor sənətində yeri



**Aktyor sənəti haqqında danışmaq bir qədər çətin mövzudur, çünki bu barədə bir çox tədqiqatçılar elmi araşdırmalar aparmışlar. Bu sahədə müəyyən yeniliklərə də nail olmuşlar. Lakin buna baxmayaraq bu sahə tam mənası ilə açılmamışdır. Xüsusilə də Azərbaycanda formalaşmış olan aktyor sənəti haqda bunu daha dəqiq demək olar.**

Bəzən səhvən aktyor sənəti ilə teatr sənətinin tarixini eyniləşdirirlər. Alimlərin fərziyələrinə inansaq belə bir nəticəyə gələ bilərik ki, "Teatr sənətinin qədimliyi, onu yaradan xalqın qədimliyinə dəlalət edir". Belə olduğu təqdirdə Şərq xalqlarının, o cümlədən Azərbaycan mədəniyyətinin, teatr tarixinin və aktyor sənətinin daha qədimliyi aşkarlanmış olur. Bu tarixin hətta eramızdan əvvəllərə qədər gedib çıxdığı sübut olunmuşdur.

Teatr sənətində əsas rolu oynayan aktyordur, obrazı dolğunlaşdıran, kamilləşdirən odur. Bəzən obrazlı olaraq rolu ətə-qana gətirdikləri də qeyd olunur. Xarakteri etibarı ilə aktyor sənətini digər sənət sahələrindən, yəni rəssamlıqdan, heykəltəraşlıqdan fərqləndirən əsas cəhət isə aktyorluq sənətinin daha canlı olmasıdır.

Aktyor hər hansı obrazı, xarakteri "öz ruhundan, varlığından, vücudundan yaradır". Aktyora xas cizgiləri yalnız ondan sonra gələn, sənət yolu etibarı ilə onun yolunu davam etdirən digər bir aktyorun oyununda görmək olar.

Bildiyiniz kimi peşəkar Azərbaycan teatrı o, cümlədən də aktyor sənətinin tarixi çox qədimlərə gedib çıxmasa da, aktyor sənəti ilə bağlı xüsusiyyətlər daha qədim tarixə malikdir. Hələ insanlarda dil ünsiyyəti formalaşmamışdan əvvəl onlar bir-birini mimikalar, jestlər və digər hərəkətlər vasitəsilə anlamağa çalışmışlar.

Bu xüsusiyyətlər özünü xalq oyun-tamaşalarında əks etdirmişdir. Xalq oyun tamaşalarını biz ov ayinlərində, məişət ayinlərində, fövqəltəbii qüvvələrə inamda görə bilərik və xalqımızın soy kökündə olan müxtəlif ayinlər musiqi, rəqs, sözlə birləşərək meydan teatrını ortaya çıxarır. Bu tamaşalarda xalqımızın mədəniyyətini, adət-ənənələrini, yaşam tərzlərini görmək olar.

Daha sonrakı dövrlərdə formalaşmağa başlayan meydan tamaşaları olan "Qodu- qodu", "Kilimarası", "Kosa-kosa", "Qaravəlli" kimi tamaşalarda müasir teatr tamaşalarına xas cəhətlərə rast gəlmək olur. Peşəkar teatr ənənələrinə ən yaxın olan meydan tamaşası isə Kərbəla müsibətlərini özündə ehtiva edən "Şəbeh" ( bəzən buna Şəbih kimi də rast gəlmək olar) dini tamaşalarıdır.

Müasir teatrın ən önəmli komponentlərindən olan dramaturq, rejissor, aktyor tandemi bu tamaşalarda var idi. Bu tamaşaların peşəkar Azərbaycan teatr sənətinin yaranmasında müstəsna xidmətləri olmuşdur. Dövrün bir çox önəmli sənətkarlarının yetişməsində meydan tamaşaları müstəsna rol oynamışdır.

Lakin 70 il sovet hakimiyyətinin Azərbaycanda bərqərar olması bütün sahələrdə olduğu kimi mədəniyyətimizə də öz təsirini göstərmiş, bunun nəticəsində yeni yaranmağa başlamış Milli Teatrımız da bütünlüklə rus teatr ənənələrini mənimsəmişdir. Bunun o qədər də mənfi hal olduğunu deyə bilmərik, çünki Azərbaycan teatrı özündə qədim Avropa teatr ənənələrinin müsbət tərəflərini mənimsəyə bilmişdir (Bu haqda teatr biliciləri yetərincə məlumatlıdırlar).

Lakin, mədəniyyət qavramının unikallığı hər xalqın özünəxas, öz yaşam tərzini əks etdirən sənətə sahib olmasındadır. Çox şükürlər olsun ki, biz bu unikal sənətə sahibik.

Bəs bu gün?

Müstəqilliyimizin yenidən bərpasından sonra yaranan bir çox teatrlar - YUĞ, Pantomima və hətta Gənc Tamaşaçılar Teatrı xalq sənətinin bəzi növlərini özündə yüksək səviyyədə birləşdirməyə nail olmuşdur. Pantomima teatrında xalq teatrının "lal oyunu" növündən istifadə olunmuşdur. Yuğ teatrında isə "Qam-Şaman" ənənələrindən bəhrənilmişdir. Son dövrlərdə isə bu hal daha da artmışdır.

Şəbnəm MAHMUDOVA